onlar Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) on ayə öyrənərdilər və bu ayələrdəki elm və əməli həyatlarında tətbiq etməyincə digər ayələrə keçməzdilər

Əbu AbdurRahmən Əs-Suləmidən (Allah ona rəhmət etsin) belə dediyi rəvayət edilir: Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) sahabələrindən bizə Quran öyrədənlər danışırdılar ki, onlar Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) on ayə öyrənərdilər və bu ayələrdəki elm və əməli həyatlarında tətbiq etməyincə digər ayələrə keçməzdilər. Onlar - "Bu sayədə elm və əməli öyrəndik" - deyərdilər.

[Həsən] [Əhməd rəvayət etdi]

Sahabələr (Allah onlardan razı olsun) Allah Rəsulundan (Allahın salavatı və salamı onun üzərinə olsun) Quranın on ayəsini öyrənərdilər. Bu on ayədəki elmi öyrənib, həmin ayələrə əməl etmədən başqasına keçməzdilər. Ona görə də, elmi və əməli birikdə öyrənərdilər.

http://www.sunnah.global/hadeeth/az/show/65058